# Özəl sektorun inkişafı iqtisadi siyasətin əsas istiqamətlərindəndir

**"Mən daim sahibkarlarla görüşürəm, həm Bakıda, həm bölgələrdə açdığım müəssisələrin sayı bəlkə də indi yüzlərlə, minlərlə ölçülür. Ancaq hər yerdə yerli icra orqanlarının rəhbərləri, icra başçıları, vəzifəli şəxslər sahibkarlara köməklik göstərməlidirlər. Onların fəaliyyətinə dəstək verməlidirlər, onları incitməməlidirlər, onların işinə müdaxilə etməməlidirlər, qanunsuz tələblər irəli sürməməlidirlər. Sahibkarları incidən şəxslər cəzalandırılacaqlar. Onlara yalnız köməklik göstərmək lazımdır ki, öz işlərini daha da səmərəli şəkildə qura bilsinlər" - bu sözləri ölkə Prezidenti cənab İlham Əliyev çıxışlarının birində bildirmişdir.**

Hər bir ölkənin davamlı və sabit inkişafını şərtləndirən mühüm amillərdən biri sahibkarlığın inkişafı, iş adamlarının fəaliyyəti üçün normal şəraitin yaradılmasıdır. Müstəqil Azərbaycanın iqtisadi sahədə keçid dövrünü uğurla başa vuraraq davamlı yüksəlişə nail olması, qlobal böhran şəraitində qarşıya qoyduğu məqsədlərə doğru inamla irəliləməsi ilk növbədə, bu sahəyə göstərilən qayğının nəticəsidir. Son illərdə özəl sektorun inkişafı üçün dövlət səviyyəsində bir sıra təşkilati, hüquqi və maliyyə-iqtisadi tədbirlərin görülməsi, biznes fəaliyyəti üçün daha əlverişli mühitin yaradılması Azərbaycanda sağlam əsaslarla təməli qoyulan sosial-iqtisadi inkişaf kursunun mahiyyətindən irəli gəlir.

Ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı ilə aparılan məqsədyönlü siyasət, həyata keçirilən sistemli tədbirlər nəticəsində ölkəmizdə siyasi və makroiqtisadi sabitliyə nail olunmuş, sahibkarlar sinfinin formalaşması üçün hüquqi baza yaradılmış, dövlət tərəfindən özəl sektora dəstək nümayiş etdirilmişdir. Ulu öndərdən sonra bu siyasəti inamla davam etdirən Prezident cənab İlham Əliyevin rəhbərliyi altında hazırda Azərbaycanın hərtərəfli inkişafında yeni mərhələ başlanmışdır.

Son illər Azərbaycanın sürətli iqtisadi inkişafında əsas hərəkətverici qüvvə olan özəl sektorun, kiçik və orta sahibkarlığın rolu böyükdür. Təkcə bu faktı qeyd etmək kifayətdir ki, son illərdə investisiyaların böyük əksəriyyəti özəl sektor tərəfindən qoyulan daxili investisiyalardır. Bu, həm də onu göstərir ki, Azərbaycan dövlətinin gücü artmış, özəl sektor ölkəmizdə gedən uğurlu proseslərdən bəhrələnmişdir.

Prezident İlham Əliyevin böyük uzaqgörənliklə apardığı müasir iqtisadi şəraitin tələblərinə uyğun olaraq düşünülmüş və ardıcıl islahatlar iqtisadiyyatın şaxələndirilməsinə, iqtisadi dayanıqlılığın təmin olunmasına, regionların tarazlı inkişafına və ölkənin strateji inkişaf hədəflərinə nail olunmasına əhəmiyyətli töhfəsini verib. Eyni zamanda, dövlət-sahibkar münasibətlərinin və qeyri-neft sektorunun inkişafı, özəl sektorda təşviq alətlərinin tətbiqi, aqrar sektora, kiçik və orta sahibkarlığa dövlət dəstəyi daim diqqətdə saxlanılıb.

Fevralın 18-də Bakının Nizami, Nərimanov rayonlarına və Kürdəmir rayonuna yeni təyin olunmuş icra başçılarını videoformatda qəbul edən Prezident İlham Əliyev demişdir: "Son vaxtlar özəl sektorun inkişafı nəticəsində biz daha böyük uğurlara nail olmuşuq. Bu sahə deyə bilərəm ki, ilk günlərdən mənim Prezident kimi fəaliyyətimdə önəmli yer tuturdu və məhz bunun nəticəsində biz ümumi daxili məhsulumuzun əsasını, əksər hissəsini indi özəl sektor tərəfindən, qeyri-neft sektoru tərəfindən təmin edirik. Ancaq indiki şəraitdə, xüsusilə postmüharibə dövründə özəl sektorun üzərinə daha böyük vəzifələr düşür. Əlbəttə ki, ilk növbədə, onlar azad edilmiş torpaqlara fikir verməlidirlər və orada öz işlərini qurmalıdırlar. Bu məsələ ilə bağlı mən artıq dəfələrlə öz fikirlərimi demişəm və eyni zamanda, fəaliyyət göstərdikləri bütün bölgələrdə fəal olmalıdırlar. Bu fəallığı dövlət təmin edir. Mən Prezident kimi həmişə sahibkarlara dəstək olmuşam həm mənəvi cəhətdən, həm də yaradılmış infrastruktur, güzəştli şərtlərlə verilmiş kreditlər və digər addımlar atılmışdır. Yerlərdə isə onlara elə şərait yaradılmalıdır ki, onlar həvəslə investisiya qoysunlar, iş yerləri yaratsınlar. Bir sözlə, onlara maneçilik törətmək yox, əksinə, kömək göstərmək lazımdır. Özəl sektorun inkişafı ümumi iqtisadi siyasətimizin istiqamətlərini nəzərə almalıdır".

Azərbaycanın iqtisadi tərəqqisində özəl sektorun həlledici rol oynaması və bunun dövlətin xüsusi maraq dairəsində yer alması heç kimə sirr deyil. İndi dövlət üçün başlıca prioritetlərdən biri özəl sektorun işğaldan azad edilən ərazilərin bərpasına və milli iqtisadiyyata sürətli inteqrasiyasına öz töhfəsini verməsidir.

Bu istiqamətdə dövlət tərəfindən bütün lazımi şərait yaradılır. Azad edilən ərazilərdə dayanıqlı inkişafın təmin olunması, burada ən müasir infrastrukturun qurulması, mədəni-tarixi abidələrin bərpası və layiqli yaşayış şəraitinin yaradılması istiqamətində aparılan genişmiqyaslı tədbirlərdə özəl sektor getdikcə daha yaxından iştirak edir.

Heç şübhəsiz, azad edilən ərazilərdə həyata keçirilən islahatlarda özəl sektorun rolunun artması Azərbaycanda sahibkarlığın daha dinamik inkişafına ciddi təkan verəcək. Çünki həmin ərazilərdə hələ çox iş görülməlidir. Dövlətin də yanaşması həmin ərazilərdə zəngin resurs və infrastruktur potensialından səmərəli istifadə, dövlət - özəl sektor tərəfdaşlığı, ən əlverişli biznes mühiti əsasında iqtisadi fəaliyyətin canlandırılması və dayanıqlı məskunlaşmanın təmin olunmasından ibarətdir. Elə Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında imzaladığı sərəncamları məhz buna xidmət edir. İlkin hesablamalara görə, işğaldan azad olunmuş ərazilər 2030-cu ilədək Azərbaycanın qeyri-neft sektorunun 10 faizə qədərini təmin edə bilər.

Azərbaycan iqtisadiyyatına sərmayə qoyuluşunda özəl sektorun payının artırılması önəmlidir. Özəl sektor maliyyə tutumuna görə daha zəngindir və burada dövr edən vəsaitin iqtisadi proseslərə cəlb edilməsi iqtisadiyyatın investisiya tələbatının ödənilməsində böyük rol oynaya bilər. İqtisadiyyatın sürətli inkişafı investisiya qoyuluşlarından da asılıdır. İnvestisiya qoyuluşları yüksəldikcə iqtisadiyyatda aktivlik artır, tələb yüksəlir, ümumi mal dövriyyəsi böyüyür. Bunun nəticəsində istehsal sahələrinin sayında, əldə olunan gəlirdə artım olur. Bu mühüm nəticələri nəzərə alaraq iqtisadiyyata daim investisiyaların qoyulması, onun ildən-ilə artırılması böyük əhəmiyyətə malikdir.

Qabaqcıl ölkələrin təcrübəsi göstərir ki, investisiya üçün lazım olan vəsaitin əsas hissəsi özəl sektorun, xüsusən də yerli mənbələrin hesabına daha səmərəli olur. Yerli sahibkarların investisiya aktivliyi yüksəldikdə iqtisadiyyata daha çox vəsait yönəlir, eyni zamanda, qeyri-stabil dövrlərdə iqtisadiyyatda tarazlığı təmin etmək daha asan olur. Özəl sektora aid yerli sərmayələrin səmərəliliyini təmin edən bu cəhətlər onun iqtisadi inkişafda əhəmiyyətini artırır.

Sahibkarlığın inkişafı ölkə iqtisadiyyatının şaxələndirilməsi baxımından həyata keçirilən dövlət siyasətinin aparıcı istiqamətlərindən birini təşkil edir. Bu siyasət iqtisadiyyatın bütün sahələrində, xüsusilə prioritet inkişaf sahələrində işgüzar fəaliyyət üçün normativ-hüquqi, təşkilati və maliyyə təminatı səviyyəsinin yüksəldilməsinə yönəldilib. Dövlət Proqramında davamlı iqtisadi inkişafın təmin edilməsi baxımından kiçik və orta sahibkarlığın dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsi, ixrac potensialının artırılmasında və cəmiyyətin sosial problemlərinin həllində onların rolunun gücləndirilməsi nəzərdə tutulub.

Dövlət başçısının ölkədə sahibkarlığın inkişafı istiqamətində atdığı addımlar sistemli və ardıcıl fəaliyyət konsepsiyasına əsaslanır. Bazar mexanizminin hərəkətverici qüvvəsi hesab edilən sahibkarlığın inkişafı sosial-iqtisadi sistemin yenidən qurulmasında, sosialyönümlü problemlərin kompleks həllində mühüm rol oynayır. Ötən illər ərzində sahibkarlığın hüquqi bazasının sistem halına gətirilməsini təmin edən qanunlar və bir sıra digər mühüm normativ sənədlər qəbul edilib. Eyni zamanda, mərkəzdə və regionlarda infrastrukturun yeniləşdirilməsi, respublikanın ən müxtəlif bölgələrində modul tipli elektrik stansiyalarının qurulması dövlətin özəl sektora dəstəyinin real təzahürüdür. Sahibkarlara dövlət büdcəsindən ayrılan vəsaitlərin həcminin ildən-ilə artırılması, onların fəaliyyətinə süni müdaxilələrin aradan qaldırılması, antiinhisar və korrupsiyaya qarşı mübarizə tədbirlərinin gücləndirilməsi iş adamları tərəfindən də razılıqla qarşılanır.

Prezident cənab İlham Əliyevin uğurla reallaşdırdığı inkişaf strategiyası artıq yeni mərhələyə qədəm qoymuşdur. Bu mərhələdə Azərbaycanın inkişaf etmiş ölkələr səviyyəsinə yüksəlməsi, özəl bölmənin, sahibkarlığın hərtərəfli inkişafı sayəsində ümumi daxili məhsulun artırılması qarşıya qoyulan başlıca hədəflərdəndir.

**M.MİRZƏ,**
**"Respublika".**

Respublika .- 2022.- 22 fevral.- S.3.